Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# Ana dilində ilk coğrafiya dərsliyinin müəllifi

## Əsgər ağa Goraninin gördüyü işlər millətin qaranlıqdan işığa çıxmasına xidmət edirdi

**XIX əsrin ikinci yarısında Azərbaycan ziyalıları məktəb və mədrəsələrdə ana dilində dərslik və dərs vəsaitlərinin hazırlanmasını gündəmə gətirdilər. Bu cəhətdən Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, Səid Ünsizadə, Seyid Əzim Şirvani, Rəşid bəy Əfəndizadə, Nəriman Nərimanov, Sultan Məcid Qənizadə və başqalarının xidmətləri təhsil tariximizdə önəmli yer tutur. Bu dərslik və dərs vəsaitlərinin əksəriyyəti ibtidai (mübtədi) sinif şagirdləri üçün nəzərdə tutulmuşdu.**

Adları sadalanan müəlliflərdən Səid Ünsizadənin və Seyid Əzim Şirvaninin dərslikləri isə oxu kitabı (müntəxəbat) kimi nəzərdə tutulmuşdu. Bu dərsliklərdə şagirdlərin əqli, fiziki və elmi tərbiyəsinin yüksəldilməsi məqsədilə klassik və şifahi xalq ədəbiyyatından, xalq pedaqogikasından şagirdlərin yaş xüsusiyyətinə uyğun əxlaqi və didaktik materiallar seçilib işlənmişdi.

XIX əsrin yeni üsullu məktəb və mədrəsələrində ayrı-ayrı fənlərin öyrənilməsinə də diqqət artırılır. Bu məqsədlə şagirdlər üçün ənənəvi dərsliklərdən fərqli dərslik və dərs vəsaitlərinin hazırlanması məsələləri gündəmə gəlir. Nəcəf bəy Vəzirov "Əkinçi" qəzetinin 6 noyabr 1876-cı il tarixli 21-ci nömrəsində Moskvadan göndərdiyi məktubunda yazırdı: " ...məktəbxanada oxunan Leyli və Məcnun, Hafiz və qeyrə uşaq kitabı deyil. Onları ki böyük oxuyanda şura gəlir, uşaq başına nə kül töksün, onları oxuyub eşqbaz cürəkeş (cürə-bir udumda içiləcək şey, burada əzbərçi mənasına uyğun gəlir-N.N. ) olmasın və bir də bizi oxudanda məhz oxuyub yazmağı öyrədirlər və dəxi səy edən yoxdur ki, bir xeyri olan şey də öyrətsin. Məsələn, Məcnun elədiyi qələti oxudunca elmi-coğrafiya kitabı oxutsaq, həm yazıb, oxumağı öyrənnik,həmi dünya üzündə olan vilayətlərdən xəbərdar olarıq".

Bu sözləri yazan vaxt Nəcəf bəy Vəzirovun hələ 22 yaşı var idi. Onun hələ o qədər də pedaqoji səriştəsi yox idi, amma təhsil aldığı məktəblərdə ona dərs deyən bacarıqlı müəllimləri var idi. Hələ də onların pedaqoji ustalıqlarını unutmamışdı. Danışığı da məhz öz müəllimlərinin mövqeyini əks etdirirdi. Nəcəf bəy Vəzirov məhz öz müəllimlərinin pedaqoji ustalıqlarına güvənərək Moskvadan Azərbaycan müəllimlərinə öyüd-nəsihət verir, məktəblərdə dərslərin, dərsliklərin və dərs vəsaitlərinin dövrün tələblərinə uyğun olmasını arzulayırdı. Onun bu arzusu tədricən reallaşırdı. "Kəşkül" qəzetinin redaktoru Cəlal Ünsizadə 1884-cü ildə özünün "Kəşkül" mətbəəsində ana dilində Avropa və Şərq pedaqoji irsinə əsaslanan "Hesab" dərsliyini çap etdirib, şagirdlərə ərməğan etdi.

"Ziya" qəzetinin 1879-cu il dekabr ayının 27-də çıxan dördüncü nömrəsində "Məmləkət əhvalatı" adlı daimi rubrikasındakı bir xəbər ölkədə dərslik siyasətinə marağın artdığını göstərir. Rubrikada 3 cümlədən ibarət kiçik bir məlumat oxucularda xoş təəssürat yaradır:

"Darülfünunda rus təhsilindən qurtarmış və bu halda (1879-cu ildə-N.N.) Gəncədə sledovatel (müstəntiq) mənsəbiylə məmuriyyətdə olan cənab ƏSGƏR BƏY ADIGÖZƏLOV bizim Azərbaycan dilində bir coğrafiya kitabının tərcümə və tərtibinə hümmət edib.

Mənfəəti-ümumiyyə mənzuri ilə xahişməmddir ki, (xahiş edir ki) mətbəəmizdə çap etdirüb,mühtəşir qıla.

(yayıla-N.N.)

Əsgərin ( kitab müəllifin adı dost və tanış adamın adı kimi çəkilir-N.N.) məmuriyyətdə məşğul olduğu halda, vətəndaşlarını yadbüd elməgi sayan təhsin və təşəkkürdür (alqışa və təşəkkürə yaraşan işdir,bəyəniləndir)"

Təəssüf ki, "Ziya" mətbəəsində çap olunan ərəb əlifbalı ilk coğrafiya dərsliyimiz hələlik tapılmayıb. Bəlkə də bu dərslik kimlərinsə köhnə evinin banında və ya zirzəmisində öz tədqiqatçısını gözləyir.

Deməli, bu faktı hələ yoxlamaq, dərslikdə materialların necə yerləşdirilməsindən hələ də danışmaq olmur.Hər halda "Ziya" qəzetinin ikinci sənəsi - 1879-su ilə aid dördüncü nömrəsindəki yazı bir çox mətləblərdən xəbər verir.

Mən bu qeydləri yazılarımda dəfələrlə xatırlatsam da, nədənsə coğrafiyaşünasları-



mız bu məsələyə etinasızlıq nümayiş etdirmişlər.

Maraqlıdır, Əsgər ağa Goraninin Tiflisdə şamaxılı Səid Ünsizadənin "Ziya" mətbəəsində çap etdirdiyi bu kitab, görəsən, hansı dildən və ya dillərdən tərcümə olunmuşdur? Bu dərsliyin tərtibində hansı elmi mənbələrdən istifadə olunmuşdur?

Əsgər ağa Adıgözəlovun bu dərsliyini Bakı, Gəncə, Moskva, Sankt-Peterburq,Tiflis və Odessanın arxivlərində, eləcə də şəxsi arxivlərdə axtarıb tapmaq və onu latın qrafikalı əlifba ilə nəşr etmək elmi ictimaiyyətimizi ciddi düşündürməlidir. Bu dərsliyin tapılması böyük əqidə və fikir sahibinin- Əsgər ağa Goraninin gələn il keçirilməsi güman edilən 160 illik yubileyinə layiqli hədiyyə ola bilərdi.

Məncə, Əsgər ağa Goraninin "Coğrafiya" dərsliyinə Bakı Real Gimnaziyasında təbiət tarixi müəllimi olmuş Həsən bəy Zərdabinin (1842-1907), Azərbaycan dilində coğrafiyaya aid silsiləli coğrafiya dərslikləri hazırlayan Qafur Rəşad Mirzəzadənin (1884- 1943), görkəmli ədəbiyyatşünas alim, Zaqafqaziya Müəllimlər Seminariyasının müəllimi Firudin bəy Köçərlinin (1863-1918) və bir sıra digər ziyalılarımızın arxivlərində rast gələ bilərik.

1923-1926-cı illərdə Bakı Dövlət Universitetində və Azərbaycan Ali Pedaqoji İnstitutunda babalarımıza -sonralar akademiklik mənsəbinə yüksəlmiş Mehdi Mehdizadəyə, görkəmli uşaq yazıçısı Mikayıl Rzaquluzadəyə, istiqlal şairi Əhməd Cavada və başqalarına pedaqogika və psixologiyadan mühazirələr oxumuş türkiyəli alim, Berlin və Leypsiq universitetlərində təhsil alan tərbiyə doktoru Halil Fikretin (1892-1974) və dövrün dərslik siyasəti ilə məşğul olan digər milli ruhlu ziyalılarımızın arxivlərində də məzkur (haqqında söz açılan-N.N.) dərsliyin izinə düşə bilərik.

Bəs Əsgər ağa Adıgözəlov kimdir?

Əsgər ağa Haqverdi bəy oğlu Adıgözəlov 1857-ci il may ayının 3-də Goran-Boyəhmədli kəndində anadan olmuşdur. O, məşhur "Qarabağnamə"lərdən birinin müəllifi Mirzə Adıgözəl bəyin nəvəsidir. Əsgər ağa (bəzi mənbələrdə onu Əsgər bəy kimi də tanıdırlar-N.N.) əvvəlcə kənd məktəbində, sonralar isə Bakı Real Gimnaziyasında təhsil almışdır. Bakı Gimnaziyasında təbiət tarixi müəllimi Həsən bəy Zərdabidən dərs alan Əsgər ağa Adıgözəlov gimnaziyanı qızıl medalla bitirəndən sonra Moskvadakı Petrovski-Razumovski adına Kənd Təsərrüfatı Akademiyasının torpaqşünaslıq şöbəsinə daxil olmuşdur. Onun Moskvadan müəllimi Həsən bəy Məlikzadəyə (Zərdabiyə-N.N.) göndərdiyi, Azərbaycan və rus dilində yazdığı məktublar ədəbi dilimizin epistolyar üslubunun ən gözəl nümunələri kimi dəyərləndirilə bilər. Bu məktubların bir çoxu ilk milli qəzetimiz "Əkinçi"nin səhifələrində işıq üzü görmüşdür. Bu mənada Əsgər ağa Gorani AdıgözəlovAzərbaycanın ilk qüdrətli elmi üsluba daha çox meyilli olan jurnalistlərindən biridir.

Əsgər ağa Adıgözəlovun (Goraninin)



bəxti onda gətirmişdir ki, onun yaxşı müəllimləri çox olmuşdur. Əlbəttə,onların ən yaxşısı Moskva Universitetinin məzunu Həsən bəy Zərdabi idi.

Əsgər ağa Adıgözəlov Azərbaycan səhnəsinin ilk Hacı Qarasıdır. M.F.Axundzadənin "Hekayəti-mərdi -xəsis" əsərinin ilk tamaşasından 32 il sonra Həsən bəy Zərdabi 1905-ci ildə "Həyat" qəzetində tamaşanın ən yaxşı ifaçısı kimi Əsgər ağanın aktyorluq məharətini çox yüksək qiymətləndirmişdir.

Əsgər ağa Adıgözəlov ixtisasca meşəçi-torpaqşünas idi. O, ixtisasını yaxşı bilirdi. Əsgər ağa hələ tələbə ikən "Əkinçi"də dərc etdirdiyi məqalələrində oxuculara özünü yüksək elmi düşüncəli ziyalı kimi tanıda bilmişdi.

Moskvada ali təhsil alan Əsgər ağa Adıgözəlov Vətənə qayıdandan sonra quberniya katibi, mülki müşavir, quberniya hakiminin köməkçisi vəzifələrində işləmişdir. Ömrünün son beş ilini Yelizavetpol (Gəncə) bələdiyyəsinin sədri vəzifəsində tarixdə qalan işlər görmüşdür. Bunlardan biri Nizami Gəncəvinin məqbərəsinin təmiri, ikincisi isə şəhərdə öz hesabına qız məktəbi açması idi. Bu maarif ocağının onlarla məzunu Azərbaycan maarifinin inkişafında, ölkədə təhsilin idarə olunmasında səmərəli fəaliyyət göstərmişlər.

Əsgər ağa Adıgözəlov ədəbiyyat bilicisi kimi də ədəbiyyat tariximizdə özünəməxsus yer tutur. Onun "Qocalıqda yorğalıq" pyesi -vodevili ilk dəfə "Kəşkül" qəzetində dərc olunmuşdur.

"Qocalıqda yorğalıq" vodevili 1892-ci ildə Cəlal Ünsizadənin "Kəşkül" mətbəəsində ayrıca kitab şəklində çap olunaraq, oxucuların mütaliə dairəsinə ünvanlanmışdır.

Yeri gəlmişkən, qeyd edək ki, Əsgər ağa Adıgözəlovun rus və Avropa ədəbiyyatından etdiyi tərcümələrə və təbdillərə həvəslə yaşıl işıq yandırması ədəbi əlaqələr tariximizim maraqlı səhifələri kimi diqqəti cəlb edir. Əsgər ağa Goraninin görkəmli rus şairi M.Y.Lermontovun "Vozduşnıy korablğ" şeirinin ezop manerası ilə etdiyi tərcüməş hələ də geniş və hərtərəfli tədqiqata cəlb edilməyib. Bu təkcümənin incələmə və yozumu ədəbi əlaqələrimizin maraqlı məqamlarını ortalığa çıxara bilər.

...Yenə də Əsgər ağa Adıgözəlova yaşıl işıq yandıran "Kəşkül"ə qayıdırıq.

"Kəşkül" mətbu fəaliyyətinə 1883-cü il yanvarın 31-də jurnal formasında başlamışdır.1884-cü ilin martından qəzet formasında çıxan "Kəşkül" 1891-ci ilin oktyabr ayında öz nəşrini dayandırmışdır. "Kəşkül" əvvəllər "Ziya" mətbəəsində çıxmışdır. Bir müddətdən sonra Cəlal Ünsizadə öz şəxsi mətbəəsini yaratmış, ona mətbuat işlərində böyüklük edən böyük qardaşı Səid Ünsizadədən ayrıca fəaliyyət göstərmişdir. Əslində Ünsizadə qardaşları öz mətbu fəaliyyətlərini daha geniş şəkildə həyata keçirmək üçün hökumət nəzərində belə görünməyi gərəkli bilmişlər.

"Kəşkül" qəzeti bağlanandan sonra Cəlal Ünsizadə Tiflisdə öz mətbəəsində naşirlik, şəhər məktəblərinin birində isə müəllimlik fəaliyyəti ilə məşğul olmuş, sonralar İstanbula - böyük qardaşı Səid Ünsizadənin yaşadığı şəhərə köçmüşdür.

Əsgər ağa Adıgözəlovun "Ziya" qəzetində imzalı heç bir yazısına rast gəlinmir. "Ziya" qəzetində Əsgər ağa Goraninin "Coğrafiya" kitabı haqqında məlumat verilməsi göstərir ki, onun Ünsizadə qardaşları ilə - həm "Ziya"nın naşiri və redaktoru Səid Ünsizadə ilə, həm də "Kəşkül"ün redaktoru Cəlal Ünsizadə ilə işgüzar münasibətləri, əqidə və məslək birliyi olmuşdur.

Əsgər ağa Goraninin həyat və yaradıcılığının hərtərəfli öyrənilməsi ictimai fikir tariximizin hələ də qaranlıq qalan bir bir sıra məqamlarını işıqlandıra bilər. Bu məqsədlə AMEA-nın müvafiq institutlarının xətti ilə hərtərəfli elmi araşdırmalar aparılması çox gərəkli görünür.

**Nazim Nəsrəddinov,
Azərbaycan Respublikasının əməkdar müəllimi,
Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının bölmə üzvü,
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə keçirilən "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***